**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN MİLLİ GEYİMİNİN SƏHNƏ TƏCƏSSÜMÜ

| | |
|---|---|
| İxtisas: | 6215.01 "Təsviri sənət" |
| Elm sahəsi: | Sənətşünaslıq |
| İddiaçı: | **Ülkər Vəli qızı Bayramova** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Bakı Xoreoqrafiya Akademiyasının "Sənətşünaslıq" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Sabirə Səfi qızı Dünyamalıyeva**

Rəsmi opponentlər: Xalq rəssamı, professor
**Ağəli Müsəlim oğlu İbrahimov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Samir Qismət oğlu Sadıqov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Nəzakət Vaqif qızı Səfərova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
________________ Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının elmi katibi:
________________ sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri:
________________ Xalq rəssamı, professor
**Salxab İsa oğlu Məmmədov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan milli geyiminin səhnə təcəssümü müasir dövrün aktual problemlərindən olub bir neçə sahəni özündə əks etdirir. Bu əhatəli problem həm teatr sənəti, həm də təsviri və dekorativ-tətbiqi sənətlərlə sıx bağlıdır. Milli söy-kökümüzə, mədəni və mənəvi dəyərlərimizə marağın artdığı müasir dövrdə nəzərdən keçirilən problem, şübhəsiz ki, aktual təsir bağışlayır.

Azərbaycan geyimi yaşı min illərlə ölçülən tarixə malikdir. Şərq ilə Qərbin qovşağında yerləşən Azərbaycan müxtəlif mədəniyyətləri bir-biri ilə əlaqələndirmiş, inkişaf etmiş, özünəməxsus milli mədəniyyət yaratmışdır. Bu mədəniyyətdə milli geyimin xüsusi rolu və əhəmiyyəti vardır.

Azərbaycan milli geyimləri maddi mədəniyyətin və məişətin mühüm tərkib hissəsidir. Geyimlər bölgə və bəzi digər xüsusiyyətlərinə görə bir-birindən nisbətən fərqlənmişlər. Lakin bununla yanaşı, onların hamısında Azərbaycana xas ümumi cəhətlər olmuşdur. Geyimlər həm də sosial, silki, ictimai və başqa xüsusiyyətlərinə görə də bir-birindən fərqlənirdilər. Digər xalqlarda olduğu kimi azərbaycanlılar arasında da tarixən yuxarı zümrəni (bəy, xan, zadəgan və s.), geniş xalq kütlələrini, şəhər və kənd əhalisini, sənətkarları, ruhaniləri və digər ictimai təbəqələri əks etdirən, həm də yerli xüsusiyyətləri ilə fərqlənən geyimlər olmuşdur. Eyni zamanda əksər sosial təbəqələr üçün xarakterik olan geyim tiplərinə və aksessuarlara, həmçinin bəzək əşyalarına rast gələ bilərik. Misal üçün, kişi geyimlərində uzunqol can köynəyi, qısaqol üst köynəyi, həmçinin çuxa, yapıncı, müxtəlif formalı baş geyimləri əksər bölgələrdə və sosial qruplarda mövcud olmuş, bir növ ümumi xarakter daşımışdır. Eləcə də qadın geyimlərində uzun qollu can köynəyi, onun üstündən geyilən qısa qollu kofta, büzməli ətək, kəlağayı ümumi xarakterli olub bütün bölgələr və sosial qruplar üçün xarakterik olmuşdur. Əgər geyimlərin biçim həllində bölgə və sosial fərqlər nisbətən az idisə, onların bəzədilməsində, aksessuarlarda fərqlər, təbii ki, daha artıq idi. Zəngin təbəqəni təmsil edən geyimlər daha artıq bəzədilir, onlarda zərgərlik nümunələrindən, qızıllı işləmələrdən daha çox istifadə edilirdi.

Milli geyimin teatra gəlişi qədim zamanlara təsadüf edir. Əslində Azərbaycan xalq teatrı yarandığı gündən milli geyimlə sıx əlaqədə olmuşdur. Bu başqa cür ola da bilməzdi, çünki Azərbaycan teatrı öz

mahiyyətinə görə dünyəvi, realist və xəlqi sənət məktəbi olmuşdur. Hələ ta qədimlərdən xalq arasında populyar olan, yaz-tarla işləri ilə əlaqədar keçirilən improvizə xarakterli mərasim oyunları, meydan tamaşaları dünyəvi xarakterə malik olub həyatı olduğu kimi, realist boyalarla, həm də maraqlı, cəlbedici olmaq üçün zəngin bədii vasitələrlə, adətən komik tərzdə əks etdirirdi. Bu zaman əsasən milli geyim nümunələrindən istifadə olunur, diqqəti cəlb etmək və maraqlı görünmək üçün ona müxtəlif əlavələr edilir, bəzəklər vurulurdu. Hətta dini məzmunlu tamaşalar - şəbihlər də məzmun və ifa tərzi etibarilə realist xarakter daşıyırdı. Burada istifadə olunan əksər geyim nümunələri xalqın hər zaman görməyə adət etdiyi ruhani geyimlərini xatırladırdı və məhz bu baxımdan mərhəm xarakter daşıyırdı. Ruhanilərə xas olan geyim tiplərini addımbaşı görməyə adət etmiş xalq kütlələrinin şüurunda şəbih tamaşalarında istifadə olunan geyimlər sanki milli məzmuna malik idi. Əslində bu geyimlər stereotip xarakteri daşıyıb bədii effekti gücləndirmək məqsədi güdürdü. Çünki şəbih tamaşalarının əsas məqsədi milli geyimləri yox, vaxtilə Kərbəlada baş vermiş faciəvi hadisələri diqqətə çatdırmaq idi.

Azərbaycan peşəkar teatrının yaranması milli və realist zəmində baş vermişdir. Xalq teatrından bəhrələnən, onun realist xüsusiyyətlərini inkişaf etdirən peşəkar teatr yarandığı gündən milli geyim nümunələrindən istifadə etmişdir. Teatr həyatın bir parçası olduğundan buradakı geyimlər də həyatı əks etdirir, özündə milli xüsusiyyətlər ehtiva edirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində məişətdə hələ də milli geyim formaları üstün idi ki, teatr səhnəsində də tamaşaçı məhz onları görürdü. Əlbəttə, bu, Azərbaycan dram əsərlərini əks etdirən tamaşalara aid idi. Həmin dövrdə daha çox Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli və başqalarının əsərləri oynanıldığından səhnədə geyimlərin milli xarakteri özünü aydın biruzə verirdi.

Teatrda milli geyimlərin təcəssümü rəssam əməyi ilə bilavasitə əlaqədardır. Rəssamlar tərəfindən yaradılan geyim eskizlərində milli məzmun bu və digər formada əks olunmuş, öz bədii ifadəsini tapmışdır. XX əsrin əvvəllərinə qədər Azərbaycan teatrı demək olar ki, rəssamsız işləmişdir. Çünki rəssam kadrlar yox idi. Həmin dövrdə səhnənin bədii tərtibatı və surətlərin geyimi ilə rejissor özü məşğul olurdu. Lakin

tezliklə Əzim Əzimzadə, Bəhruz bəy Kəngərli və başqaları teatra cəlb olundular və bununla da Azərbaycan teatr-dekorasiya sənəti həyata vəsiqə qazandı. Geyim eskizləri də teatr-dekorasiya sənətinin tərkib hissəsi kimi inkişaf edirdi. Tezliklə Azərbaycan teatrında Rüstəm Mustafayev, Qəzənfər Xalıqov, İsmayıl Axundov, Həsən Mustafayev, Sadıq Şərifzadə, Kazım Kazıımzadə, Tahir Salahov, Bədurə Əfqanlı, İzzət Seyidova, Nüsrət Fətullayev və başqaları fəaliyyətə başladı.

İstər XX əsrdə, istərsə də müasir dövrdə milli geyimlər səhnədə mövcud olmuşdur və olmaqda davam edir. Milli geyimin səhnədə təcəssümü, ilk növbədə klassik irslə əlaqədardır. Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Zülfüqar Hacıbəyov, Hüseyn Cavid və başqalarının dramaturgiyası, həmçinin Cəfər Cabbarlı, Səməd Vurğun, Mehdi Hüseyn və digərlərinin tarixi keçmişə həsr edilmiş əsərləri teatrda milli geyimlərin təcəssümünün əsas mənbəyi, onun hərəkətverici qüvvəsidir. Ötən əsrin 60-80-ci illərində daha sonra bunu Nüsrət Fətullayev, Bədurə Əfqanlı, Elçin Aslanov, Elçin Məmmədov, İsmayıl Məmmədov və başqalarının yaradıcılığında müşahidə etmək olar. Həmin rəssamların yaratdığı milli məzmunlu geyim eskizləri bədii tutumu, daxili və zahiri zənginliyi ilə bu gün də öz əhəmiyyətini qoruyub saxlamışdır. Bu proses teatrda bu gün də davam edir və Nazim Bəykişiyev, Rəşid Şərif, Nabat Səmədova, Aygün Mahmudova kimi rəssamların yaradıcılığında öz ifadəsini tapır.

Azərbaycan milli geyimlərinin səhnə təcəssümü xeyli aktual olan bir mövzudur. Bu aktuallıq müasir dövrdə milli mədəniyyətin intibahı, həmçinin mədəni irsə olan böyük maraqla əlaqədardır. Bunlarla yanaşı mövzunun aktuallığı həm də teatr və təsviri sənət tarixinin, teatr rəssamlarının yaradıcılığının, milli geyimlərin öyrənilməsi, təbliğ edilməsi, mədəni irsin qorunub saxlanılması, elmin inkişafı ilə izah edilir.

Son illərdə hazırkı mövzuya nisbətən yaxın olan, onun müxtəlif aspektlərini əks etdirən bir sıra elmi əsərlər yazılmış, dissertasiya işləri müdafiə edilmişdir. Azərbaycan səhnəqrafiyası tarixinə aid yeni əsərlər meydana gəlmiş, müxtəlif rəssamların - Bədurə Əfqanlının, Mayis Ağabəyovun, Elçin Məmmədovun və başqalarının yaradıcılığını əks etdirən tədqiqat işləri yazılmışdır. Bütün bunlar hazırkı problemin aktuallığını göstərir. Çünki adı çəkilən rəssamlar həm də milli mövzuda

kostyum eskizləri hazırlamışlar. B.Əfqanlının yaratdığı teatr və rəqs kostyumu eskizləri buna sübut ola bilər.

Mövzunun aktuallığı təsviri sənətə olan ümumi marağın tərkib hissəsi kimi də dəyərləndirilə bilər. Məlum olduğu kimi, hazırkı dövrdə Azərbaycanın klassik mədəni irsinə maraq xeyli çoxalmışdır. Bir sıra mədəni irs nümunələri, o cümlədən kəlağayı YUNESKO-nun Qeyri-maddi Mədəni İrs siyahısına daxildir. Kəlağayının milli qadın geyimində mühüm rol oynadığını nəzərə alsaq milli geyimlərin müasir dövrdəki aktuallığını anlamaq olar.

Digər tərəfdən, teatr elə bir sənət sahəsidir ki, orada milli varlığın müasir həyatda, gündəlik məişətdə görə bilmədiyimiz xüsusiyyətlərini vizual formada təcəssüm etdirmək mümkündür. Bu sırada milli geyimlərin də mühüm rolu vardır. Bu gün milli geyimlər aradan çıxmış, yalnız rəqs, teatr və s. bu kimi sahələrdə saxlanılmışdır. Ona görə də sözü gedən sahələrin öyrənilməsinə, təbliğ olunmasına böyük ehtiyac vardır. Teatr sənəti vasitəsilə milli geyimlər sanki gözlərimiz önündə canlanaraq yenidən həyata vəsiqə qazanır, milli şüurun inkişafına kömək edirlər. Milli rəqslər və teatr tamaşaları vasitəsilə Azərbaycan geyimləri həm də milli mədəniyyətimizin dünyada tanıdılması, təbliğ edilməsi üçün bir vasitədir. Bütün bunlar hazırkı mövzunun aktuallığını şərtləndirir.

Milli geyimlərin teatr səhnəsində təcəssüm etdirilməsi geyimlərin öyrənilməsinin tərkib hissəsidir. Ona görə də məsələnin daha geniş müstəvidə - milli geyim tarixi müstəvisində nəzərdən keçirilməsinə ehtiyac vardır. Mövzu ilə əlaqədar bir sıra fundamental tədqiqat işləri aparılmış, məqalələr yazılmışdır. Doğrudur, həmin elmi-tədqiqat işlərində milli geyim teatr müstəvisində deyil, maddi-mədəniyyət obyekti kimi işıqlandırılır. Digər tərəfdən, teatr rəssamlarının yaradıcılığına həsr olunmuş tədqiqatlarda mövzu ilə əlaqədar maraqlı fikirlərə rast gəlinir. Misal üçün, Əzim Əzimzadənin, Bəhruz bəy Kəngərlinin, Bədurə Əfqanlının, İzzət Seyidova, Sadıq Şərifzadənin və başqalarının yaradıcılığına həsr olunmuş tədqiqatlarda bu mövzuya qismən toxunulur. Lakin sözügedən tədqiqatlarda əsas mövzu geyim yox, həmin rəssamın yaradıcılığıdır. Ona görə də hazırkı mövzu tam olaraq tədqiq edilməyib.

Alim və tədqiqatçıların yaradıcılığında milli geyimlər müxtəlif kontekstlərdə işıqlandırılır ki, bu da hazırkı mövzu ümumi cəhətlərə

malikdir. Rasim Əfəndiyevin[1], Sabirə Dünyamalıyevanın[2], Səriyyə Əsədovanın[3], Ziyadxan Əliyevin[4], Sevil Sadıxovanın[5],[6],[7],[8], Sevda Sadıxbəyovanın[9],[10],[11], Afaq Hüseynovanın[12] və başqalarının əsərləri bu və ya digər dərəcədə hazırkı mövzu ilə əlaqədardır.

Milli geyim və onun bölgələr üzrə növmüxtəlifliyi sahəsində S.Dünyamalıyevanın xidmətləri böyük olmuşdur. Son illərdə alim bu sahədə bir çox araşdırmalar aparmış, geyimlərin tipologiyasını müəyyən etmiş, bir çox milli geyim növlərinin, bəzək elementlərinin təsvirini vermişdir. S.Dünyamalıyevanın bu sahədəki araşdırmaları onun müxtəlif elmi nəşrlərində öz əksini tapır. Bunlardan "Azərbaycan geyim mədəniyyəti tarixi"[13], "Azərbaycan geyim mədəniyyəti tarixi:

---

[1]Əfəndiyev R.S. Azərbaycan xalq sənəti / R.S.Əfəndiyev. – Bakı: İşıq, – 1984. – 205 s.
[2] Əfəndiyev, R.S. Azərbaycan geyimləri / R.S.Əfəndiyev, S.S.Dünyamalıyeva. – Bakı, – 1997. – 62 s.
[3]Əsədova, S. XIX-XX əsrlərdə Azərbaycan zərgərlik sənəti / S.Əsədova. – Bakı: Elm, – 1978. – 96 s.
[4]Əliyev, Z.A. Azərbaycan rəqs geyimi / Z.A.Əliyev. – Bakı: Oskar, –2010. – 123 s.
[5]Sadıxova, S.Y. XIV-XVII əsr Azərbaycan miniatüründə hərbi geyim və silah // – Bakı:Qobustan – 1988. № 3, – s. 18-21.
[6]Sadıxova, S.Y. Milli geyim. Zərgərlik sənəti / S.Y.Sadıxova. – Астана: Turkic art anthology, – 2014, – s. 209-217.
[7]Sadıxova, S.Y. Azərbaycan zərgərlik sənətinin Yaxın və Orta Şərq ölkələri ilə qarşılıqlı əlaqəsi / sənətşünaslıq üzrə elmlər doktoru dis. avtoreferatı – Bakı: - 2011. – 46 s.
[8]Sadıxova, S.Y. Orta əsr Azərbaycan miniatüründə qadın geyimi // – Bakı: Azərbaycan incəsənətinin aktual problemləri, – 1991. – s. 31-34.
[9]Sadıxbəyova, S.R. Bədii tərtibat sənətində geyim multikultural dəyərlərin təcəssümü kimi // "Müasir dövr humanitar sahənin elm, təhsil və yaradıcılıq problemləri üzrə elmi və elmi-tədqiqat fəaliyyətlərinin istiqamətləri və mühüm nəticələri" mövzusunda VI Respublika elmi-praktiki konfransının materialları, – Bakı: – 28 fevral, – 2019, – s. 30-36.
[10]Sadıxbəyova, S.R. Azərbaycan Opera və Balet teatrı rəssamlarının teatr-dekorasiya sənəti: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2004. – 26 s.
[11]Sadıxbəyova, S.R. Bədii tərtibat sənətində geyim multikultural dəyərlərin təcəssümü kimi // "Müasir dövr humanitar sahənin elm, təhsil və yaradıcılıq problemləri üzrə elmi və elmi-tədqiqat fəaliyyətlərinin istiqamətləri və mühüm nəticələri" mövzusunda VI Respublika elmi-praktiki konfransının materialları, – Bakı: – 28 fevral, – 2019, – s. 30-36.
[12] Sadıxbəyova, S.R. Səhnəqrafiya tarixi. Dərslik. – Bakı: Ecoprint, – 2018. – 247 s.
[13]Dünyamalıyeva, S.S. Azərbaycan geyim mədəniyyəti tarixi / S.S.Dünyamalıyeva. – Bakı: Elm, – 2002. –448s.

bədii-etnoqrafik tədqiqat”[14], “Moda tarixi və dünya xalqlarının milli geyimləri”[15], “Azərbaycan geyimlərinin bədii-dekorativ xüsusiyyətləri”[16] və başqalarını göstərmək olar. Tədqiqatın işlənilməsi prosesində bu və digər nəşrlərdən əsas metodoloji baza kimi yaradıcılıqla istifadə edilmişdir.

Milli geyim və onun səhnə təcəssümü geniş və çoxplanlı elmi-tədqiqat obyektidir. Burada həm geyim (aksessuar və dekorativ bəzək elementləri ilə birlikdə), həm məişət (milli-etnoqrafik müstəvidə), həm də geyimin səhnə təcəssümü problemləri özünü büruzə verir. Ona görə də bilavasitə geyim ilə yanaşı, onun teatr sənətindəki təcəssüm formaları da ana problem kimi tədqiqatın mərkəzində dayanır. Məsələyə bu kontekstdə yanaşdıqda teatr-dekorasiya sənətinin peşəkar xüsusiyyətlərinin araşdırılması (tarixi və metodoloji müstəvidə) böyük əhəmiyyət daşıyır. bu sahədə dəyərli əsərlər çoxdur. Misal üçün, Sevda Sadıxbəyovanın “Azərbaycan Opera və Balet teatrı rəssamlarının teatr-dekorasiya sənəti”[17], N.Ə.Mirzəyevanın “XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycanda musiqili tamaşaların bədii tərtibatı”[18] və A.B.Hüseynovanın “Azərbaycanın balet tamaşalarında sənətlərin sintez problemi”[19], G.V.İbadovanın “Azərbaycan müasir folklor qruplarının milli geyim ənənələri”[20] mövzusunda tədqiqatlarında mövzu ilə bağlı materiallara rast gəlinir.

---

[14]Dünyamalıyeva, S.S. Azərbaycan geyim mədəniyyəti tarixi: bədii-etnoqrafik tədqiqat. – Bakı: Nağıl evi , – 2003. – 213 s.

[15]Dünyamalıyeva, S.S. Moda tarixi və dünya xalqlarının milli geyimləri / S.S.Dünyamalıyeva. – Bakı, – 2003. – 304 s.

[16]Dünyamalıyeva, S.S. Azərbaycan geyimlərinin bədii-dekorativ xüsusiyyətləri / S.S.Dünyamalıyeva. – Bakı, – 2013. – 181 s.

[17] Sadıxbəyova, S.R. Azərbaycan Opera və Balet teatrı rəssamlarının teatr-dekorasiya sənəti: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2004. – 26 s.

[18] Mirzəyeva, N.Ə. XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanda musiqili tamaşaların bədii tərtibatı / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı – Bakı: – 2011. – 25 s.

[19] Hüseynova, A.B. Azərbaycanın balet tamaşalarında sənətlərin sintez problemi: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı / – Bakı, 2013. – 22 s.

[20] İbadova, G.V. Azərbaycan müasir folklor qruplarının milli geyim ənənələri / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı – Bakı: – 2013. – 26 s.

Bununla yanaşı, “Azərbaycan milli geyiminin səhnə təcəssümü”[21], “Xalq rəssamı İsmayıl Axundovun yaradıcılığında səhnəqrafiya və geyim eskizləri”[22], “Bədurə Əfqanlının yaradıcılığında milli geyim eskizləri”[23] və başqa məqalələrdə problemin müxtəlif aspektləri araşdırılır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan rəssamlarının yaratdığı milli geyim eskizləridir. Bu sırada Əzim Əzimzadə, Sadıq Şərifzadə, Sergey Yefimenko, Həsən Mustafayev, Bədurə Əfqanlı, həmçinin Elçin Aslanov, İsmayıl Məmmədov, Nazim Bəykişiyev və başqalarının yaradıcılığı tədqiqatın obyektini təşkil edir. Məlum olduğu kimi, XX əsrin əvvəllərindən tutmuş son dövrə qədər müxtəlif rəssamlar tərəfindən tamaşalar üçün çoxlu sayda maraqlı geyim eskizi nümunələri yaradılmışdır. Bunların bir çoxunda milli xarakter özünü aydın büruzə verir ki, bu da hazırkı tədqiqatın diqqət mərkəzindədir. Tədqiqatın predmetini Azərbaycan teatr rəssamlığının inkişafı, teatr tamaşalarının bədii təkamülündə milli geyimlərin əhəmiyyəti məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın aparıcı teatrlarında milli geyim eskizlərinin tarixi və bədii xüsusiyyətlərini öyrənmək, bu sahədə çalışmış rəssamların yaradıcılığını araşdırmaq, müqayisə etmək, teatr sənətinin inkişafında milli geyim eskizlərinin rolunu müəyyən etməkdir. Bu məqsədlə tədqiqat qarşısında aşağıdakı vəzifələr müəyyən edilmişdir:

–Azərbaycan teatrında milli geyimin təcəssüm xüsusiyyətlərinin öyrənilməsi, teatrın inkişafında onun rolunun müəyyən edilməsi;

–Geyim eskizləri kontekstində Azərbaycan teatr rəssamlığı tarixinin işıqlandırılması;

–Geyim eskizləri işləmiş rəssamların yaradıcılığının öyrənilməsi və müqayisəli təhlili;

---

[21] Bayramova, Ü.V. Azərbaycan milli geyiminin səhnə təcəssümü // Dokrorant və gənc tədqiqatçıların XXI Respublika elmi konfransının materialları, – Bakı: – 24-25 oktyabr, – 2017, – s. 232-234.

[22] Bayramova, Ü.V. Xalq rəssamı İsmayıl Axundovun yaradıcılığında səhnəqrafiya və geyim eskizləri // – Bakı: İncəsənət və mədəniyyət problemləri,– 2018. № 4 (66), – s. 80-88.

[23] Bayramova, Ü.V. Bədurə Əfqanlının yaradıcılığında milli geyim eskizləri // – Bakı: Mədəniyyət dünyası. ADMİU, – 2018. XXXV, – s. 165-171.

–Azərbaycan teatr rəssamlığının əsas inkişaf mərhələlərinin müəyyənləşdirilməsi və bunun mədəniyyətin ümumi inkişaf dövrləri ilə əlaqələndirilməsi;

–Müasir dövrdə Azərbaycan teatrlarında milli geyimin səhnə təcəssümü xüsusiyyətlərinin araşdırılması, milli özünüdərkin inkişaf etdirilməsində milli geyimin rolunun işıqlandırılması.

**Tədqiqat metodları** tarixi-müqayisəli prinsipə əsaslanır. İşin strukturu tarixi mərhələlər üzrə bölünmüş, teatr proseslərinin, həmçinin geyim eskizlərinin inkişafı həmin prinsipə əsasən aparılmışdır. Həmçinin ayrı-ayrı rəssamların, misal üçün, İsmayıl Axundovun, Bədurə Əfqanlının yaradıcılığı tarixi planda təhlil edilmiş, onların yaradıcılığı erkən (30-40-cı illər) və yetkin (50-60-cı illər) mərhələlərə bölünmüşdür.

Tarixi metodla yanaşı, müqayisəli metod da tədqiqatda mühüm yer tutur. Bu müqayisə həm dövrləri, həm də ayrı-ayrı rəssamların yaradıcılığını əhatə edir. Tədqiqat işində teatr sənətinin ümumi inkişafı üç əsas mərhələdə nəzərdən keçirilmiş, keçmiş dövrlə müqayisədə yeni dövrün inkişaf xüsusiyyətləri (90-cı illərdə isə həm də reqressiyası) nəzərdən keçirilmiş, təhlil edilmişdir. Müqayisəli təhlil metodu həm də rəssamların yaradıcılığının qiymətləndirilməsində öz əksini tapır. Bu, xüsusən müəyyən əsərlərin ("Lənkəran xanının vəziri", "Od gəlini", "Vaqif"), surətlərin (Afşin, Qacar, vəzir, İbrahimxəlil xan və b.) müxtəlif dövrlərdə müxtəlif rəssamlar (Sergey Yefimenko, Həsən Mustafayev, İsmayıl Məmmədov) tərəfindən yaraılmasını təhlil etdikdə özünü doğruldur və proseslərin inkişaf dinamikası barədə ardıcıl (ənənədən müasirliyə doğru) təsəvvür yaradır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

–Azərbaycan milli geyiminin səhnə təcəssümünün ümumi tarixi-bədii mənzərəsi yaradılmışdır;

–Milli geyimin təkamülündə səhnənin və ümumən teatr sənətinin rolu müəyyən edilmişdir;

–Milli geyimin və eskiz sənətinin inkişafında teatr rəssamlarının yaradıcılığı qiymətləndirilmişdir;

–XX əsrdə Azərbaycan rəssamları tərəfindən yaradılmış milli geyim eskizlərinin bədii təhlili verilmişdir;

–Müasir dövrdə milli geyimin inkişaf etdirilməsində teatrın əhəmiyyəti vurğulanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada ilk dəfə olaraq milli geyimlərin səhnə təcəssümü məsələləri işıqlandırılmış, ayrı-ayrı rəssamların yaradıcılığı nümunəsində öz əksini tapmış və əsaslandırılmışdır. Həmçinin bəzi rəssamların, o cümlədən Həsən Mustafayevin, Elçin Aslanovun, İsmayıl Məmmədovun və başqalarının yaradıcılığı ilk dəfə olaraq geyim eskizləri müstəvisində təhlilə cəlb edilmişdir. Geyim eskizlərinin səhnədə tarixi təkamülünün öyrənilməsi də tədqiqatın elmi yeniliyi kimi dəyərləndirilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyadan elmi tədqiqat işlərinin aparılmasında, tədris prosesində istifadə oluna bilər. Dissertasiyanın mövzusu bir tərəfdən təsviri və dekorativ-tətbiqi sənət, digər tərəfdənsə teatr sənəti ilə bağlı olduğundan onun istifadə dairəsi daha əhatəli olması ilə fərqlənir. Dissertasiyada rast gəlinən əsas müddəalar, ümumiləşdirmələr və nəticələr XX əsr və müasir Azərbaycan incəsənətinin əsas inkişaf dinamikasını əsaslandırmaq üçün istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu üzrə iddiaçının ikisi xaricdə olmaqla, 12 məqaləsi çap edilmişdir. Həmçinin iddiaçı dissertasiya mövzusunda biri xaricdə olmaqla iki elmi-nəzəri konfransda məruzə ilə çıxış etmişdir. Dissertasiya müasir dövrdə milli geyinin təkamülü və teatr rəssamlığı proseslərinin izlənilməsində nəzəri və praktik mənbə kimi tətbiq oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Bakı Xoreoqrafiya Akademiyasının “Sənətşünaslıq” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, altı paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə, giriş 15318 işarə, I fəsil 87988 işarə, II fəsil 69437 işarə, III fəsil 80969 işarə, nəticə isə 8055 işarə ibarətdir. Tədqiqat işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr istisna olunmaqla 261767 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I Fəsli "Azərbaycan milli geyiminin teatr sənətində təşəkkül mərhələləri"** - iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan milli geyimlərinin səhnə təcəssümü"** adlanır. Qeyd olunur ki, Şərq ilə Qərbin arasında, mühüm karvan yolları üstündə yerləşən ölkəmiz zəngin maddi-mədəniyyət nümunələri, qiymətli sənət əsərləri yaratmışdır.

Azərbaycan mədəniyyətinin mühüm bir hissəsini teatr sənəti təşkil edir. Azərbaycan teatrı xalq tamaşaları zəminində inkişaf etmişdir. Teatr güclü həyat və sənət məktəbi olmuş, xalq öz arzularını, fikir və təsəvvürlərini onun dili ilə ifadə etmişdir. Teatr həm də milli adət-ənənənin bədii dəyərlərin saxlanc yeri olmuşdur. "Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Gəvsəç" kimi mərasimlərdə xor, rəqs və dialoqla yanaşı, dramatik süjetə, hərəkətə, bəzən isə bədii surətə də rast gəlinir. "Novruz" mərasiminin mühüm epizodunu təşkil edən "Kosa-kosa" oyunu əsl teatr örnəyidir. Burada ardıcıl süjet, dramatik hərəkət, həmçinin xüsusi paltar geyinən maska taxan aktyor vardır. Bir neçə gün davam edən toy mərasimlərində ifa olunan "Xan-xan", "Mütriblərin rəqsi", "Gəlinlə qayınananın deyişməsi" və s. epizodlar, burada oyun və tamaşa ünsürlərinin müstəqil əhəmiyyət kəsb etdiyini göstərir.

Səhnə tərtibatı ilə birlikdə geyim, teatr rəssamlığının mühüm tərkib hissələrindən biridir. Teatr sənəti tarixən mili zəmində inkişaf etmişdir. O, xalqın adət-ənənəsini, arzu və istəklərini, həyat tərzini obrazlı şəkildə ifadə etmiş, insanların bədii-estetik dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

Milli geyim teatr sənətində tarixən mühüm rol oynamışdır. Çünki milli geyim milli məişətin, maddi mədəniyyətin tərkib hissəsidir. Teatr isə məhz bu cəhəti, xalq kütlələrinin həyatını, gündəlik qayğılarını bir güzgü kimi əks etdirir. Teatr sənətinin uzun müddət inkişaf etmiş realist xarakteri milli geyimin səhnədə mühüm rol oynamasının təminatçısı olmuşdur. Bəhruz bəy Kəngərlinin teatr rəssamlığına gəlincə, bu rəssamlıq milli zəmində intişar tapmış, milli zəmində inkişaf etmişdir. Rəssamın teatr-dekorasiya yaradıcılığı Naxçıvan teatrı ilə sıx bağlı olmuşdur.

Görkəmli rəssam Ə.Əzimzadənin bir çox rəsmlərində, eləcə də “Köhnə Bakı tipləri” seriyasında müxtəlif geyim növlərinin zəngin qalereyasına rast gəlinir. Bu baxımdan rəssamın milli məişəti bədii sənətkarlıq müstəvisində təcəssüm etdirməsi həqiqi vətəndaşlıq təəssübkeşliyi kimi qiymətləndirilə bilər. Onun çəkdiyi müxtəlif əmək-mərasim səhnələri, Novruz bayramı, eləcə də şəbih tamaşaları, Aşura mərasimləri zamanı istifadə olunan geyim nümunələri xalq tamaşalarında geyim tiplərinin əyani mənzərəsini yaradır. Rəssam özü bütün bunları canlı olaraq seyr etmiş, hafizəsinə köçürmüş, realist cizgilərlə, olduğu kimi kağız üzərində canlandırmış, xalq üçün miras qoyub getmişdir. “Azərbaycan incəsənətində Novruz bayramı ilə əlaqədar ilk əsərləri hələ 1920-30-cu illərdə Ə.Əzimzadə yaratmışdır.

Birinci fəslin ikinci paraqrafı “**1920-1940-cı illərdə milli geyim eskizlərinin bədii təkamülü və onların səhnə həlli”** adlanır. Burada qeyd olunan mərhələdə teatr səhnəsində milli geyimin təkamülü tədqiqatın əsasını təşkil edir.

Məlum olduğu kimi, 1920-ci ildən etibarən teatr və ümumiyyətlə mədəniyyət sahəsində əsaslı dəyişikliklər baş vermişdir. Azərbaycan Dövlət teatrı öz repertuarını genişləndirdi, yeni teatrlar təsis olundu. Həmin dövrdə Ə.Əzimzadə əvvəllərdə olduğu kimi, yenə də teatrlarla sıx əməkdaşlıq edirdi. Dövlət Dram teatrında 1920-ci il mayın 4-də tamaşaya qoyulan “Dəmirçi Gavə” əsərinin bədii tərtibatını və geyim eskizlərini o vermişdi. Tamaşa sonrakı dövrdə də öz aktuallığını saxlamışdı. Əzimzadə geyimlər vasitəsilə tamaşaya milli məzmun gətirmiş, ona Azərbaycan məişətini əks etdirən milli xarakter vermişdir. Bəhram surətinin eskizi, onun geyim həlli buna misal ola bilər. Tənqid-təbliğ teatrının hazırladığı birinci tamaşanın (“Laçın yuvası” 1921, 22 may) səhnə tərtibatı və geyim eskizlərini də Ə.Əzimzadə işləmişdi.

1930-cu illər milli səhnəqrafiyanın inkişafı dövrüdür. Bu dövrdə Akademik Milli Dram Teatrında N.Fətullayev, İ.Axundov, Ə.Abbasov kimi gənc rəssamlar çalışırdılar. Eləcə də Musiqili Komediya teatrında Ə.Sultanov, H.Mustafayev, Opera və Balet teatrında Ə.Fətəliyev, Ə.Almaszadə, İ.Seyidova, Gənc tamaşaçılar teatrında S.Şərifzadə, B.Əfqanlı və başqaları fəaliyyət göstərirdilər.

Həmin dövrdə teatr rəssamı kimi fəaliyyət göstərən gənclərdən biri də İsmayıl Axundov idi. Rəssamın teatra ilk gəlişi 1937-ci ilə təsadüf edir. O zaman Azərbaycan Dövlət Dram Teatrının (ADDT) baş

rejissoru olan Adil İsgəndərov onu teatra Mirzə İbrahimovun "Həyat" pyesinə geyim eskizləri vermək üçün dəvət etmişdi. Tamaşa uğurlu alındı və bu uğurun əldə edilməsində bədii tərtibatın rolu heç də az olmadı. Beləliklə, İ.Axundov həm də teatr rəssamı kimi öz yaradıcılıq fəaliyyətini davam etdirməyə başladı.

Eyni dövrdə fəaliyyətə başlamış N.Fətullayev, S.Şərifzadə, S.Yefimenko və başqaları öz yaradıcılıqlarının erkən mərhələsində səhnədə məhz ənənəvi realizm meyllərini, zəngin dekorlaşdırma prinsiplərini əsas götürürdülər. İstedadlı teatr rəssamı, öz həyatını Azərbaycan qrafika sənətinə və səhnəsinə bağlamış Sergey Yefimenkonun "Şah İsmayıl" (M.Maqomayev), "Od gəlini", "1905-ci ildə" (Cəfər Cabbarlı) və digər tamaşalara verdiyi eskiz nümunələri bəzi şərtiliklərə baxmayaraq dövrünün diqqət çəkən nümunələri idi. Tədqiqat işinin sonrakı fəsillərində müqayisələr aparılarkən S.Yefimenkonun yaradıcılıq nümunələrinə bir daha münasibət bildirilir.

1930-cu illər Azərbaycan teatr rəssamlığında ilkin ənənələrin formalaşması, yeni bədii prinsiplərin meydana çıxması dövrüdür. Bu zaman artıq teatr rəssamlığı sahəsində müəyyən uğurlar əldə edilmiş, peşəkar kadr hazırlığına qismən nail olunmuşdu. Həmin dövrdə teatrda gənc rəssamlar nəsli formalaşmışdı. Bədurə Əfqanlı, Sergey Yefimenko, Nikolay Ovçinnikov, Kazım Kazımzadə, Əsgər Abbasov və başqaları səhnəyə yeni ruh, yeni məkan həlli gətirmişdilər. Əvvəllərdə olduğu kimi, teatr rəssamlığında həyatı canlı, dolğun tərzdə əks etdirən realist formalar üstün idi. Doğrudur, bəzi hallarda səhnədə konstruktivizm təmayülləri də özünü büruzə verirdi; lakin bu, daha çox moda xarakteri daşıyıb ümumi dəst-xətti dəyişmirdi.

1930-cu illərdə yaradılmış milli geyim eskizləri iki əsas mənbədən qaynaqlanırdılar. Bunlardan biri Ə.Əzimzadə sənəti idi. Doğrudur, 1930-cu illərdə Ə.Əzimzadə artıq teatrda nisbətən az quruluş verirdi; yaş özünü göstərirdi. Lakin onun əsasını qoyduğu realist sənət məktəbi yaşayır və gəncləri bu məktəbdən bəhrələnməyə çağırırdı. Bu, xüsusən milli klassikanın - "O olmasın, bu olsun", "Arşın mal alan", "Evliykən subay" kimi tamaşaların rəssamlıq həllində özünü büruzə verirdi.

İkinci mənbə isə 1920-ci illərin ikinci yarısından etibarən formalaşmağa başlayan peşəkar sənət idi. Bu peşəkar sənət öz başlanğıcını 1921-ci ildə Bakıda rəssamlıq məktəbinin yaradılmasından

götürürdü. Aradan cəmi 10 il keçməsinə baxmayaraq 1930-cu illərin əvvəllərində Azərbaycan teatr-dekorasiya sənətində milli xarakteri dolğun ifadə edən kifayət qədər qüvvətli rəssamlıq ənənələri formalaşmışdı. Qəzənfər Xalıqov, İsmayıl Axundov, Sadıq Şərifzadə, Bədurə Əfqanlı, Əmir Hacıyev, Həsən Mustafayev və başqaları həm Əzimzadə, həm də bədii təhsil ənənələrini kifayət qədər yaxşı mənimsəmiş rəssamlar idilər. Gənc olmalarına baxmayaraq 30-cu illərdə onlar uğurla fəaliyyət göstərirdilər və tezliklə sənətdə öz sözünü deməyə nail oldular.

1940-cı illər Xalq rəssamı Kazım Kazımzadənin teatr rəssamlığı sahəsində püxtələşdiyi dövrdür. K.Kazımzadə əsasən qrafika sahəsində fəaliyyət göstərmiş rəssamdır. Kitab illüstrasiyaları, plakat sənəti ilə yanaşı, o, teatr-dekor sənəti sahəsində də uğurla çalışmışdır. Rəssam 40-cı illərdə əsasən Dram teatrının səhnəsində bədii tərtibatlar vermiş, 1950-ci illərdə daha çox Opera və Balet teatrında fəaliyyət göstərmişdir. Onun "Fərhad və Şirin" (1941, Səməd Vurğun), "Nizami" (1942, Mehdi Hüseyn), "Vəfa" (1942, Rəsul Rza) kimi tamaşalara verdiyi geyim eskizləri indi də zəngin rəng həlli, ifadəliliyi, obrazların xarakterik tərzdə əks olunması ilə diqqəti cəlb edir.

Dissertasiyanın **II Fəsli – "Azərbaycan teatr səhnəsində milli geyimin təcəssümünün yetkin inkişaf mərhələsi"** – iki paraqrafı özündə birləşdirir. **"1950-1960-cı illərdə teatr geyimində əks olunan milli xarakterin bədii ifadə formaları"** adlanan birinci paraqrafda klassik əsərlərlə yanaşı, yeni tamaşaların teatrda yaradıcılıq həyatının yenidən qurmaq sahəsində ilk səylərin səmərəli olduğu fikri öz əksini tapır. Bu tamaşalar hər şeydən əvvəl həyata cəsarətlə nüfuz etmək, həyat həqiqətini daha dərindən qavramaq, müasirlərin, yeni və mütərəqqi olan hər şey uğrunda mübarizlərin parlaq, çoxcəhətli surətlərini yaratmaq səyləri ilə diqqəti cəlb edirdi.

Vaxtilə Ə.Əzimzadə, B.Kəngərli, Ə.Hüseynzadə tərəfindən əsası qoyulan teatr rəssamlığı sənəti sonralar R.Mustafayev, Ə.Abbasov, İ.Seyidova, Ə.Fətəliyev və başqaları tərəfindən davam etdirildi. Onlardan bir çoxu sənətə 1930-40-cı illərdə gəlmiş, 1950-60-cı illərdə isə öz yaradıcılıqlarının çiçəklənmə dövrünü keçirən teatr rəssamları idi. Bu sırada B.Əfqanlının da adı vardır. 1950-60-cı illərdə o, bir sıra tamaşalara uğurlu tərtibat vermiş, milli koloritli, məzmunlu geyim eskizləri yaratmışdır.

B.Əfqanlının ömür və sənət yolları teatrla sıx bağlı idi. O, Bakıdakı rəssamlıq məktəbində təhsil alıb və 1931-ci ildə buranı bitirib. B.Əfqanlı uzun illər ərzində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında, Azərbaycan Dövlət Rus Dram Teatrında, həmçinin Azərbaycanfilm kinostudiyasında geyim üzrə rəssam kimi məhsuldar fəaliyyət göstərmişdir. Göründüyü kimi, B.Əfqanlı teatrda çalışdığı dövrdə C.Cabbarlı, S.Vurğun, M.İbrahimov, Ə.Məmmədxanlı, İ.Əfəndiyev kimi görkəmli ədiblərin əsərlərinə bədii tərtibat vermiş, obrazların geyim eskizlərini hazırlamış, tanınmış rejissor və aktyorlarla birlikdə çalışmışdır. İstedadlı teatr rəssamının yaratdığı bir çox eskizlər hazırda Azərbaycan Dövlət Teatr Muzeyində mühafizə edilir.

Görkəmli dramaturq, yazıçı və kinossenarist Ənvər Məmmədxanlının "Şirvan gözəli" pyesinin bədii tərtibatı (1957) B.Əfqanlının yaradıcılığında mühüm yer tutur. Rəssam həm pyesin bədii tərtibatını vermiş, həm də iştirakçıların geyim eskizlərini çəkmişdir. Əsərdəki Telli, Nüsrət kimi surətlər xarakterik zahiri görkəmləri ilə yadda qalır. Rəssam bu surətlərin hər biri üçün fərdi geyim eskizləri hazırlamışdır. Bu geyimlər həmin dövrdəki Azərbaycan kənd geyimlərinin ümumiləşdirilmiş görünüşünü əks etdirir.

Pyesdəki Nüsrət surətinin geyimi xarakterik cizgiləri ilə yadda qalır. Əgər "Eşq və intiqam"dakı Heydərqulunun geyimi XIX əsrin sonlarındakı kəndli geyiminin ümumiləşdirilmiş cəhətlərini əks etdirirsə, Nüsrət obrazının geyimi öz dövrünün ümumiləşdirilmiş kənd geyimini təcəssüm etdirir.

Bədurə Əfqanlının 1950-ci illərin ikinci yarısında yaratdığı uğurlu geyim eskizlərindən "Leyli və Məcnun" (Üzeyir Hacıbəyli), "Fərhad və Şirin" (Səməd Vurğun) və başqalarını göstərmək olar. Zəngin plastika, mütənasiblik, təzadlı rəng həlli, bəzənsə incə, lirik-romantik mahiyyət bu eskizləri xarakterizə edən əsas əlamətlərdir. Cəsarətlə demək mümkündür ki, Azərbaycan teatrı üçün geyim eskizlərinin yaradılmasında B.Əfqanlı bir məktəb yaratmışdır.

Həmin illərdə teatrla əməkdaşlıq edən rəssamlardan biri də S.Şərifzadə idi. Onun yaradıcılığında təsviri sənətin digər sahələri ilə yanaşı, teatr-dekor sənəti də mühüm yer tutur. Bu baxımdan onu İsmayıl Axundov ilə müqayisə etmək mümkündür. Hər iki rəssam təxminən eyni dövrdə yaradıcılıqla məşğul olmuşlar. Onların hər ikisinin yaradıcılığında həm teatr-dekor sənəti (kostyum sənəti ilə

birgə), həm də təsviri sənətin başqa növləri təmsil olunub. Fərq yalnız bunda idi ki, İ.Axundov əsasən sulu boya ilə işləyirdisə, S.Şərifzadə yağlı boya ilə işləməyə daha çox üstünlük verirdi. Lakin bu, rəssamın teatr-dekorasiya sahəsində məhsuldar işləməsinə mane olmurdu (teatr eskizləri, bir qayda olaraq, sulu boya ilə işlənilir). Sadıq Şərifzadə müxtəlif illərdə Süleyman Rüstəmin "Qaçaq Nəbi", "Qastello", İslam Səfərlinin "Göz həkimi", Mehdi Hüseynin "Cavanşir", Mirzə İbrahimovun "Kəndçi qızı", eləcə də xarici müəlliflərdən Lope de Veqanın "Sevilya ulduzu" və başqa əsərlərin bədii tərtibatını vermişdir.

S.Şərifzdənin maraq doğuran bədii tərtibat nümunələrindən biri də Mehdi Hüseynin "Cavanşir" dramıdır. Əsər 1957-ci ildə qələmə alınmış və elə həmin il Azrbaycan Dövlət Dram teatrının səhnəsinə qoyulmuşdur. C.Cabbarının "Od gəlini", S.Vurğunun "Vaqif", Bəxtiyar Vahabzadənin "Dar ağacı" pyesləri kimi, bu əsər də tarixi xarakter daşıyır. Əsərdə Azərbaycan tarixinin mürəkkəb, ziddiyyətli dövrü olan VII əsr hadisələri – sasanilərin, ərəblərin ölkəyə yürüşü, onu tabe etmək cəhdləri təsvir olunur. Əsər, şübhəsiz ki, yüksək milli-vətənpərvərlik ruhunda yazılmışdır və bu gün də aktualdır.

İkinci fəslin ikinci paraqrafı "**1970-1980-ci illərdə Azərbaycan səhnəsində milli geyimin bədii-estetik məzmunu" adlanır.** Bu paraqrafda problemin qoyuluşu yeni inkişaf dövrü şəraitində nəzərdən keçirilir.

1970-80-ci illər Azərbaycan teatrının növbəti inkişaf mərhələsini təşkil etmişdir. Əgər 60-cı illərdə klassik realizm məktəbi tam formalaşmışdısa, 70-ci illərdən etibarən teatrda müasir insan amili, onun dünyagörüşü, psixoloji aləmi ön plana çıxmışdı. Təbii ki, bunun əks-sədası olaraq, teatr rəssamlığının da qarşısında yeni vəzifələr qoyulmuşdu. Doğrudur, bunlar bir qayda olaraq müasir həyatdan bəhs edən tamaşalara aid idi. Belə tamaşalarda milli geyim tiplərinə az müraciət olunur. Lakin klassik tamaşaların müasir quruluşlarında təbii ki, yeniliklər olurdu və bu yeniliklər özünü həm də səhnə və kostyum həllinə olan yeni münasibətdə büruzə verirdi. Rejissorlar "Leyli və Məcnun", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi klassik əsərləri dövrün tələblərinə uyğunlaşdırmağa çalışır, onlara yeni ştrixlər, çalarlar əlavə edir, daha dolğun, bənzərsiz bədii ifadə vasitələri axtarıb tapmağa çalışırdılar. Əlbəttə, yeniliklər teatr, daha doğrusu səhnə məkanının vizual həllindən yan keçə bilməzdi. Ona görə də teatr rəssamlarının

öhdəsinə məsul vəzifələr düşürdü.

1970-ci illər səhnə məkanının sadələşdirilməsi dövrüdür. Bunu təkcə teatra yeni gələn gənc rəssamların fəaliyyətində deyil, daha yaşlı nəsli təmsil edən rəssamların yeni yaradıcılıq nümunələrində də izləmək mümkündür. Misal üçün, Ə.Fətəliyevin, N.Fətullayevin, İ.Orucovanın və başqalarının 1940-50-ci illərdə təklif etdikləri iri həcmli, zəngin formalı, qüvvətli bədii təəssürat oyadan dekorasiyalar 1970-ci illərə doğru sadələşdirilmiş, daha çox simvolik xarakterli elementlərlə əvəz olunmağa başlamışdı. "Boşalmış" məkanı isə tamaşanın intellektual təfəkkürü, psixoloji ifadə vasitələri, tamaşaçı ilə aktyorun daxili "dialoq"u doldurmalı idi. Həqiqətən də artıq 60-cı illərin sonlarından başlayaraq T.Kazımovun, M.Məmmədovun və başqalarının ayrı-ayrı quruluşlarında (tamaşanın yeni və ya klassik olmasından asılı olmayaraq) yeni bədii təcəssüm formaları təsbit edildi. Səhnə məkanı xeyli sadələşdi, interyer daha təbii, daha inandırıcı zahiri görünüş kəsb etdi, kostyum həlli faktiki olaraq müasir geyimin bir hissəsinə çevrildi.

Eyni zamanda 1970-80-ci illərdə səhnədə klassik, artıq formalaşmış, ənənəyə çevrilmiş bədii prinsiplər də yaşamaqda davam edirdi. Əsasən klassik tamaşalara aid olan bu meyllər teatr-dekorasiya və kostyum tərtibatında da qorunub saxlanılmışdı. Məlumdur ki, səhnədə xalq həyatını əks etdirən geyimlər zaman axarı ilə dəyişə bilməzlər (hərçənd dəyişənləri də olur). Məşədi İbadın, yaxud Rüstəm bəyin geyim həlli zamanla az dəyişir və bu dəyişiklik müasirliklə yox, daha çox rəssamın öz fərdi baxışlarının təsiri altında baş verir.

1970-ci illərdə Azərbaycanın aparıcı teatrlarında çalışan rəssamlar fərqli üslublar nümayiş etdirir, eyni zamanda geyimlərdə milli xarakterin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün axtarışlar aparırdılar. Bu dövrdə yaşlı nəslin nümayəndələri olan Kazım Kazımzadə, Əyyub Fətəliyev, Bədurə Əfqanlı ilə yanaşı sənətə nisbətən yeni gəlmiş Ağarəhim Əliyev, Fuad Qafarov, Elçin Məmmədov, İsmayıl Məmmədov və başqaları yeni sənət meyarlarına üz tutmağa çalışırdılar. Maraqlıdır ki, klassik nəsli təmsil edən rəssamlarla müqayisədə gənclərin sənət axtarışları daha radikal təsir bağışlayırdı. Misal üçün, E.Məmmədov teatr eskizlərində milli xarakteri qoruyub saxlayır, lakin onu özünəməxsus tərzdə, avanqard üslubda əks etdirirdi.

1970-ci illərdə teatr sənətində milli geyimin inkişafı həm də

kukla teatrı ilə bağlıdır. Azərbaycanda kukla teatrı nisbətən gec formalaşsa da, əslində onun köklü ənənələri vardır. Görkəmli Azərbaycan rəssamı Ə.Əzimzadə bəzi rəsmlərində kukla teatrını, kuklaları təsvir etmişdir. Sonralar kukla teatrının mahiyyəti bir qədər dəyişmiş, əsasən kiçik yaşlı uşaqlar üçün tamaşaların hazırlanmasına başlanılmışdı. Müasir kukla teatrı məhz bu istiqamətdə inkişaf edir. Eyni zamanda bu da vurğulanmalıdır ki, kukla teatrı böyüklər üçün də maraqlı və aktualdır.

İstedadlı kukla ustası, Əməkdar rəssam Solmaz Musayevanın həmin dövrdə yaratdığı kukla eskizləri maraq doğurur.

Dissertasiyanın **III Fəsli "Müstəqillik illərində səhnədə milli geyim və onun bədii təcəssüm formaları"** – iki paraqrafdan ibarətdir. **"1990-cı illərdə teatrda milli geyimin bədii ifadə formaları"** adlanan birinci paraqrafda həmin dövrdə fəaliyyət göstərmiş teatr rəssamlarının yaradıcılıq axtarışlarını ön plana çəkməklə səhnədə milli geyimin inkişaf dinamikasını təhlil etməyə yönəlmişdir. Bu illərdə Azərbaycanın müxtəlif teatrlarında yaşlı və orta nəsli təmsil edən rəssamlar çalışırdılar. Eyni zamanda bəzi teatrlara, misal üçün gənclər teatrına yeni qüvvələrin gəlişi də müşahidə olunurdu. Lakin bütövlükdə həmin illərdə fəaliyyət göstərən rəssamlar sənətdə özünü təsdiq etmiş mütəxəssislər idilər. 80-ci illərin sonu – 90-cı illərdə teatrda İsmayıl Məmmədov, Adil Azayev, Ənvər Qarayev, Arif Abdullayev, Şamil Nəcəfzadə, Rafael Əsədov, Elçin Aslanov, Elçin Məmmədov, Nazim Bəykişiyev və başqa rəssamlar fəaliyyət göstəriblər. Bu və digər rəssamlar Dövlət Dram teatrı ilə yanaşı, Bakının və respublikanın digər teatrlarında da fəaliyyət göstərirdilər.

1990-cı illərin əvvəlləri mədəniyyətin ən çətin dövrü olmuşdur. Lakin bədii ənənələr yaratmış Azərbaycan teatrı və onun tərkib hissəsi olan səhnəqrafiya sənəti bu çətinliklərə sinə gərdilər və çətinliklərə qalib gəldilər. Çətinliklərə baxmayaraq, rəssamlar teatr tamaşasının ərsəyə gəlməsində özlərinin mühüm rolunu əvvəlki tək hiss edir, öz böyük sələflərinin ənənələrini yaşatmağa çalışırdılar. Çünki rəssam əməyi olmadan tamaşanın uğur qazanmasının mümkün olmayacağını bilirdilər.

Əgər 1990-cı illərin birinci yarısı nisbətən zəif təsir bağışlayırdısa, 1990-cı illərin ortalarından etibarən keyfiyyətcə daha yaxşı tamaşalar hazırlanmağa başlanmışdı. Bu, təbii ki, həmin dövrdə

respublikada siyasi iqlimin, ab-havanın sabitləşməsi, yaşayış səviyyəsinin tədricən yüksəlməsi ilə əlaqədar idi.

1996-cı ildə Dövlət Akademik Dram teatrında bir sıra yaddaqalan tamaşalar nümayiş etdirilmişdi ki, burada milli tematika özünü çox aydın büruzə verirdi. Bunlardan Əli Əmirlinin "Ağqoyunlular və Qaraqoyunlular" tamaşası və onun bədii tərtibat xüsusiyyətləri diqqəti xüsusilə cəlb edir. Tamaşanın quruluşçu rejissoru Bəhram Osmanov, rəssamı isə Lətifə Quluzadə idi.

"Ağqoyunlular və Qaraqoyunlular" tarixi əsərdir, burada milli geyim eskizlərinin rolu böyükdür. Tamaşanın xarakteri elədir ki, burada həm döyüşçü, həm hökmdar və əyan, həm də sadə kəndli geyimlərinə təsadüf edilir. Təbii ki, bütün bunları səhnədə dolğun canlandırmaq üçün təcrübəli rəssam tələb olunurdu. Ona görə də Lətifə Quluzadə kimi təcrübəli rəssamın bu "çətin" tamaşaya rəssam qismində cəlb edilməsi təəccüblü görünməməlidir.

1996-cı ilin sonlarında Dövlət Akademik Dram Teatrında Azərbaycan tarixinin daha bir taleyüklü dönəmindən bəhs edən tamaşa – İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri hazırlandı. Tamaşanın quruluşçu rejissoru Mərahim Fərzəlibəyov, rəssam İsmayıl Məmmədov idi (afişalarda və həmin dövrün bəzi sənədlərində rəssamı adı İsmayıl Əsədoğlu kimi göstərilir).

Artıq həmin dövrdə İsmayıl Əsədoğlu (Məmmədov) istedadlı tərtibatçı rəssam kimi kifayət qədər yaxşı tanınırdı. Rəssamın taleyüklü dramlara tərtibat verməsi də o illərdən başlamışdı. Tale elə gətirmişdi ki, komediya və tərcümə əsərləri ilə yanaşı, İ.Məmmədov məhz taleyüklü tarixi dram əsərlərinə də bədii tərtibat vermiş, çoxsaylı eskizlər işləmişdi. Bu tipli eskizlər onda daha yaxşı alınırdı, sanki onun dünyagörüşünü, mənliyini və varlığını əks etdirirdi. Sonralar İlyas Əfəndiyevin digər tarixi dramlarına, Bəxtiyar Vahabzadənin "Dar ağacı", "Özümüzü kəsən qılınc" kimi dramlarına eskizlər işləyəcək rəssam 90-cı illərdə bir növ hazırlıq mərhələsi keçirdi. Teatrın hələ də maddi çətinliklər içərisində olmasına baxmayaraq İ.Məmmədov böyük zəhmət nümayiş etdirərək bu tarixi əsər üçün olduqca maraqlı eskizlər hazırladı.

1997-ci il də uğurlu teatr mövsümlərindən sayıla bilər. Əgər Akademik Dram Teatrının repertuarına müraciət etsək, həmin ildə milli məzmun və xarakterin ümumi mövzuda və rəssam işində kifayət qədər

uğurlu təsir bağışladığının şahidi olarıq. 1997-ci ildə Xalq yazıçısı Elçinin "Ah, Paris, Paris!.." (rejissor Azər Paşa Nemətov, rəssam Elçin Məmmədov), Səməd Vurğunun "Fərhad və Şirin" (rejissor Cənnət Səlimova, rəssam Tahir Tahirov), Azərbaycan xalq nağılları əsasında "Şıltaq şahzadənin nağılı" (rejissor Abbas Qəhrəmanov, rəssam Kamal Şıxəliyev) kimi tamaşalar oynanılıb. Əlbəttə, biz tamaşaların adını çəkərkən ilk növbədə geyimlərdə milli xarakterin daha dolğun təmsil olunduğu quruluşlara üstünlük veririk. Məlumdur ki, hər tamaşanın özəllikləri var və milli xarakter heç də hər bir tamaşada eyni dərəcədə özünü təcəssüm etdirə bilməz. Misal üçün, "Ah, Paris, Paris!.." tamaşası müasir mövzudadır, burada dekorativ-tətbiqi sənətə əsaslanaraq geyim eskizlərində milli xarakteri üzə çıxarmaq nisbətən çətindir, bəlkə də heç məqsədəuyğun deyil. Bununla belə, tamaşanın rəssamı Elçin Məmmədovun özünəməxsus dəst-xətti, realizmdən irrealizmə doğru meyllənən və bu zaman milli xarakterdən məharətlə yararlanan bədii üslubu geyim eskizlərində milli məzmunun əks olunmasına müəyyən qədər təsir göstərir, onu təcəssüm etdirir. Ümumiyyətlə, bir teatr rəssamı kimi Elçin Məmmədovun rəsmləri (geyim eskizləri) milli ənənədən qaynaqlanır və o, hətta müasir görünən süjetlərdə belə xalq yaradıcılığından qidalanan, özündə milli xarakter əks etdirən, milli geyim növlərindən istifadə edən obrazlar təqdim edə bilir.

Üçüncü fəslin ikinci paraqrafı **"2000-ci illərdə milli teatr geyimi ənənə və müasirliyin qovşağında"** adlanır. Burada əsas tədqiqat obyekti kimi son illərin teatrda milli geyimin təzahür xüsusiyyətləri çıxış edir.

2000-ci illər Azərbaycanın yeni tarixinə müstəqilliyin, milli ideologiyanın möhkəmlənməsi, Azərbaycan mədəniyyətinin dünyada aktiv surətdə təbliğ edilməsi dövrü kimi daxil olmuşdur. Şübhəsiz ki, bu məsələdə teatr rəssamlığının da özünəməxsus rolu və payı vardır. Dram əsərləri üçün yaradılmış geyim eskizləri və onların hazırlanaraq canlı ifa zamanı səhnədə təcəssüm etdirilməsi müasir dövrdə milli geyimin teatrla sıx əlaqələrə malik olduğunu göstərir.

Əlbəttə, milli geyimin səhnəyə yol tapması repertuarla bağlıdır. Müasir repertuar əksər hallarda elə seçilir ki, orada yaxın-uzaq tarixi keçmişin xarakterik cizgilərini əks etdirən, qan yaddaşımıza çökən, vətənpərvərlik ideyalarını təbliğ edən əsərlər olsun. H.Cavidin "İblis",

“Afət”, C.Cabbarlınn “Od gəlini”, “Almas”, S.Vurğunun “Vaqif”, “İnsan”, İ.Əfəndiyevin “Xurşidbanu Natavan”, “Hökmdar və qızı”, B.Bahabzadənin “Özümüzü kəsən qılınc”, “Dar ağacı”, N.Xəzrinin “Burla xatun” kimi əsərlərində vətənpərvərlik ideyaları qüvvətli tərzdə ifadə olunmuşdur. Bu ideyaların vizual həllində milli geyimin də özünəməxsus rolu vardır. Əksər hallarda milli xarakter daşıyan tarixi geyimlər Azərbaycan tarixinin işıqlandırılması, aydın görünüb dərk edilməsi üçün mühüm vasitədir.

2000-ci illərdə Nazim Bəykişiyev, Elçin Aslanov, İsmayıl Məmmədov, Nabat Səmədova və başqalarının eskizlərində zəngin milli koloriti ilə seçilən maraqlı geyim eskizi nümunələrinə rast gəlmək olar.

Bu dövrdə öz məhsuldar fəaliyyətini davam etdirən rəssamlardan biri də İsmayıl Məmmədov idi. Onun teatr sahəsindəki fəaliyyəti müxtəlif tamaşaların bədii tərtibatını əhatə edir. Bunlardan biri də B.Bahabzadənin ADDT-da tamaşaya qoyulmuş “Dar ağacı” tarixi dramıdır. İ.Məmmədov uzaq tarixi keçmişimizi müasir vətənpərvərlik müstəvisində canlandıran bu dram üçün maraqlı dekorasiya və geyim eskizləri işləmişdir. Xalq yazıçısı İlyas Əfəndiyevin “Hökmdar və qızı” əsəri əsasında hazırlanmış “Qarabağnamə” tamaşasının bədii tərtibatında da İ.Məmmədovun qoyub getdiyi yaradıcılıq nümunələrindən istifadə olunmuşdur.

“Qarabağnamə” tamaşasının geyim üzrə rəssamı Aygün Mahmudova, işıq üzrə rəssamı Rafael Həsənovdur.Tamaşanın geyim nümunələrinin vizual təhlili geyimlərin kifayət qədər sadə formada həll edildiyini aşkar edir. Belə ki, geyimlər əsasən XIX əsr kübar geyim tiplərini əks etdirir. Hadisələr Qarabağda cərəyan etdiyindən səhnədə daha çox bu bölgəyə xas olan geyim tiplərindən istifadə olunub. Lakin bu, şərti xarakter daşıyır. Məlumdur ki, müasir Azərbaycan sənətşünaslığında və etnoqrafiyasında milli geyimlər kifayət qədər ətraflı tədqiq olunub. P.Əzizbəyova, R.Əfəndiyev, S.Dünyamalıyeva, S.Sadıxova və başqalarının tədqiqatlarında bu barədə yetərincə məlumat vardır. Qarabağın kübar geyimləri biçim etibarilə Azərbaycanın digər bölgələrinin geyimləri ilə müştərək xüsusiyyətlərə malikdir. Eyni zamanda xalça sənətində olduğu kimi, geyimlərdə də Qarabağ tipi üçün kiçik ölçülü bəzək detalları xarakterik olmuşdur. Bu, xüsusən kübar qadın geyimlərinə aiddir. A.Mahmudova tamaşanın geyim həllində kübar milli geyim elementlərindən məharətlə istifadə

etmiş, həm də bunu interyerlə əlaqələndirmişdir. Misal üçün, Qarabağ xanının qızının geyim bəzəkləri ilə xanın taxtının bəzəkləri arasında müəyyən oxşarlıq vardır.

Müasir Azərbaycan səhnəqrafiya sənətində mühüm xidmətləri olan fırça ustalarından biri də Xalq rəssamı Nazim Bəykişiyevdir. Onun milli səhnəqrafiya sənətinin inkişafında xidmətləri kifayət qədərdir. Bunu rəssamın yaradıcılığını tədqiq etmiş mütəxəssislərin fikirləri də təsdiq edir. "Nazim Bəykişiyev bir çox teatrların – Azərbaycan Dövlət Milli Dram teatrının, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının, Rus Dram Teatrının, Ağdam, Şəki və bir çox digər teatrların səhnəsində oynanılmış tamaşaların dekorasiyalarının müəllifidir. N.Bəykişiyevin son dövrlərdə təqdim etdiyi uğurlu işlərdən biri də C.Məmmədquluzadənin "Dəli yığıncağı" (1927) komediyasıdır. Əməkdar İncəsənət xadimi Bəhram Osmanovun rejissorluğu ilə hazırlanan bu tamaşa tamamilə fərqli bir interpretasiyada tamaşaçılarla görüşə gəlmişdir.

"Dəli yığıncağı" Akademik Milli Dram Teatrının səhnəsində sonuncu dəfə 41 il bundan əvvəl – 1978-ci ildə rejissor Mehdi Məmmədov tərəfindən səhnələşdirilmişdi. Doğrudur, aradan keçən illər ərzində "Dəli yığıncağı" ölkənin müxtəlif teatrlarında (misal üçün, 2015-ci ildə Gəncə teatrında) səhnələşdirilib. Lakin B.Osmanovun rejissurasında əsər yeni kontekstdə, həm də müasirliklə əlaqədar tərzdə işıq üzü görmüşdür. Burada əsərin müasir səslənməsi ilə yanaşı, onun vizual təcəssüm formalarının, misal üçün, geyimin görünüşü əsas şərtlərdəndir.

**Nəticədə** aşağıdakı qənaətlər əldə edilmişdir:

- Azərbaycan milli geyimi peşəkar teatrın formalaşdığı ilk dövrlərdən səhnədə təcəssüm olunmuş, teatr sənətinin qüvvətli bədii ifadə vasitəsinə çevrilmişdir;
- Milli geyimlər hələ peşəkar teatr formalaşmazdan əvvəl xalq tamaşalarında, mərasim oyunlarında özünü büruzə vermişdir;
- Səhnədə milli geyimlərin təcəssümündə milli dramaturgiyanın müstəsna xidmətləri vardır. M.F.Axundzadə, N.B.Vəzirov, Ə.B.Haqverdiyev, C.Məmmədquluzadə, Ü.Hacıbəyli və başqa klassiklərin əsərlərinin milli geyimlərin səhnədə təcəssüm olunmasında böyük xidmətləri vardır. Həmçinin S.S.Axundov, H.Cavid, C.Cabbarlı, S.Vurğun, M.Hüseyn, Ə.Məmmədxanlı və başqalarının yaratdığı dram

əsərlərinin bu işdə əhəmiyyəti olmuşdur;

- Azərbaycanda teatr rəssamlığının inkişafı ilkin mərhələdə Ə.Əzimzadə, B.Kəngərli və başqalarının adı ilə bağlı olmuşdur. Sonralar, XX əsrin 20-30-cu illərində bu sahədə yerli kadrlar yetişmiş, teatr üçün yaradılan geyim eskizlərinin sayı xeyli çoxalmışdı;
- Azərbaycan milli geyim eskizləri tarixini üç əsas dövrə bölmək olar. Bunlar XX əsrin əvvəllərindən 40-cı illərədək olan birinci dövr, 50-80-ci illəri əhatə edən ikinci dövr və 90-cı illərdən başlayaraq bu günə qədər davam edən üçüncü dövrdür. Öz növbəsində bu dövrlər daha kiçik zaman kəsimlərinə bölünə bilər;
- Azərbaycan teatrında milli geyimin təcəssümü teatr rəssamlarının yaradıcılığı ilə sıx əlaqədardır. Bu sahədə Ə.Əzimzadə, İ.Axundov, S.Şərifzadə, N.Fətullayev, K.Kazımzadə, B.Əfqanlı, İ.Seyidova, E.Aslanov, İ.Məmmədov, N.Bəykişiyev, R.Şerif və başqalarının xidmətləri daha böyükdür;
- Bir çox rəssamlar (xüsusən S.Şərifzadə, K.Kazımzadə, B.Əfqanlı və b.) geyim eskizlərinə daha ciddi yanaşmış, onu obrazın xarakterinə, dövrə və mühitə uyğunlaşdırmış, eyni zamanda geyimin milli xarakterini onun biçimi, forması, rəngi, bəzək məmulatları ilə daha dolğun əks etdirmişlər. Bu rəssamların yaratdığı eskizlərdə dinamika və plastika xüsusiyyətləri güclüdür;
- Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, əksər hallarda eskizlərdə əks olunan milli geyimlər ümumi xarakter daşımış, rəssamın zövqünü, dünyagörüşünü əks etdirmişdir. Xüsusən qadın geyimlərinin eskizlərində ümumi, stereotip xarakterli formalardan istifadə edilmiş, əsasən sosial fərqlərə (varlı və ya kasıb) diqqət yetirilmişdir;
- Eskizlərin əksəriyyəti kiçik ölçüdə olduğundan geyimlərdə bəzək və aksessuarlar o qədər də nəzərə çarpmır;
- Son illərdə eskizlərin yaradılması nisbətən azalmışdır ki, bu da dünya teatrında gedən ümumi proseslərlə, həmçinin kompüter texnologiyalarının inkişafı ilə bağlıdır. Bir sıra hallarda tamaşa eskizlər olmadan, bilavasitə hazır geyimlər (resurslar) əsasında hazırlanır ki, bu da rejissorun həm də rəssam kimi çıxış etməsinə şərait yaradır;
- Bütün bunlara rəğmən teatrlarda milli geyim əvvəllərdə olduğu kimi yenə də öz qüvvətli bədii ifadəsini tapmaqdadır. Teatr səhnəsi hər zaman milli geyimin qüdrətli təcəssüm meydanı olmuşdur və bu gün də həmin üstünlüyü qoruyub saxlayır.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**


1. Azərbaycan milli geyiminin səhnə təcəssümü // Doktorant və gənc tədqiqatçıların XXI Respublika elmi konfransının materialları, – Bakı: – 24-25 oktyabr, – 2017, – s. 232-234.
2. Xalq teatrında milli geyim və onun bədii xüsusiyyətləri // – Bakı: Elmi əsərlər. ADMİU, – 2018. № 25, – s. 155-162
3. Bədurə Əfqanlı yaradıcılığında milli geyim eskizləri // – Bakı: Mədəniyyət dünyası. ADMİU, – 2018. XXXV, – s. 165-171
4. Xalq rəssamı İsmayıl Axundovun yaradıcılığında səhnəqrafiya // – Bakı: İncəsənət və Mədəniyyət problemləri. AMEA. Memarlıq və İncəsənət İnstitutu, – 2018. № 4 (66), – s. 80-88
5. Сценическое воплощение национальной Азербайджанской одежды (историко-культурный обзор в контексте традиции и современности) // Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы VIII Международной научно-практической конференции, – Пятигорск: – 24-25 декабря, – 2018, – с.125-130
6. National costum and national character in Azerbaijan Purret Theatre in the 1970-80s // – Bakı: İncəsənət və Mədəniyyət problemləri. AMEA. Memarlıq və İncəsənət İnstitutu, – 2019. № 3 (69), – s. 60-69
7. XX əsrin 40-60-cı illərində Azərbaycan teatrı səhnəsində milli geyimin bədii təcəssüm formaları (Kazım Kazımzadə və Sadiq Şərifzadənin yaradıcılığında) // – Bakı: Sənət Akademiyası. Bakı Xoreoqrafiya Akademiyası, – 2020. № 1 (9), – s. 137-143
8. Особенности сценического воплощения национальной азербайджанской одежды во второй половине 30-х – начале 40-х годов прошлого века (по эскизам театральных художников) // – Çex: Paradigmata poznani, – 2020, – с.64-68
9. Театральные эскизы заслуженного художника Азербайджана Исмаила Мамедова в контексте воплощения национального характера // Traditional and modern culture: History, actual situation, prospects. Materials of the X International scientific conference, – Prague: – 20-25 September, – 2020, – p.17-22

10. Традиции национального театрального костюма в Азербайджане и современность // – Ukrayna: Актуальні питання гуманітарних наук, – 2022, – с. 71-76
11. Nazim Bəykişiyevin yaradıcılığında geyim eskizləri // Nakhchivan; Eurasia IV.International scientific research andinnovation congress - June 1-3, 2024, -s. 587-588
12. Особенности творчества современного театрального художника Мустафы Мустафаева // Москва: Научный Форум: Филология, Искусствоведение И Культурология - Июль 2024 г. - с. 4-9

Dissertasiyanın müdafiəsi 13 mart 2025-ci il tarixində saat 14.00-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası AZ 1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Rəssamlıq Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ fevral 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23 yanvar 2025-ci il
Kağızın formatı: A5
Həcm: 41.899
Tiraj: 100